# Şuşada dalğalanan BAYRAQ...




**Üçrəngli bayrağın kölgəsində mən**
**Qaraca torpağı Vətən görmüşəm.**
**Bayraq mənliyimdir, bayraq kimliyim,**
**Bayraq – öz yurduma öz hakimliyim.**

*Bəxtiyar VAHABZADƏ*
*Xalq şairi*

Vətən müharibəsindəki parlaq qələbəmizdən sonra respublikamızda Zəfər və Bayraq günləri ardıcıl olaraq qeyd edilir. Bəlkə də bu, heç də təqvimdə nəzərəçarpan xoş bir təsadüflə deyil, İlahi qüvvənin, haqq-ədalətin iradəsi ilə bağlıdır. Çünki bayraq da, Vətən də müqəddəs anlayış anlamına gəlir. Elə buna görə də “Torpaq uğrunda ölən varsa, Vətəndir” deyilir. Torpaq uğrunda şəhadətə yüksələn qəhrəman da bayrağa and içib bu müqəddəs yolu seçir.

Bəli, bayraq Vətən qədər müqəddəsdir, bayraq elə Vətənin özü deməkdir. Bax, bu məqamı nəzərə alsaq, görərik ki, əvvəllər olduğu kimi, İkinci Qarabağ savaşına da hər bir əsgərimiz cəbhədən qələbə ilə qayıtmaqla yanaşı, üçrəngli bayrağımızı da Qarabağın hər guşəsinə sancmaq arzusu ilə yola düşürdü. Döyüşlərdə misilsiz qəhrəmanlıqlar nümayiş etdirən, ölümsüzlük şərbəti içən şəhidlərimiz isə cənnətə bayrağa bükülərək yola salınırdı. Hər bir Vətən övladı savaşda əldə olunan parlaq qələbədən sonra yaşanan sevinci, bəxtiyarlığı bayrağa bürünərək, bayrağı evlərin eyvanında dalğalandıraraq qeyd edirdi, qürurunu bayrağın fonunda nümayiş etdirirdi.

Yeri gəlmişkən, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Azərbaycan SSR Ali Soveti qarşısında qaldırdığı vəsatətin nəticəsi olaraq, 1991-ci il fevralın 5-də “Azərbaycan Respublikasının Dövlət bayrağı haqqında Əsasnamə” qəbul edib və mavi, qırmızı, yaşıl zolaqlı, Ay-ulduzlu bayraq Azərbaycanın dövlət bayrağı olub.

2009-cu il noyabrın 17-də Prezident İlham Əliyevin imzaladığı sərəncamla hər il noyabr ayının 9-u ölkəmizdə Dövlət Bayrağı Günü elan edilib. Dövlətimizin başçısı bayraqla bağlı deyib: “Bizim bayrağımız qürur mənbəyimizdir. Bizim bayrağımız canımızdır, ürəyimizdir. Bu gün Azərbaycanın hər bir yerində dövlət bayrağı dalğalanır. Azərbaycan ərazi bütövlüyünü bərpa edəndən sonra milli dövlət bayrağımız bu gün hələ də işğal altında olan torpaqlarda qaldırılacaqdır. Bizim bayrağımız Dağlıq Qarabağda, Xankəndidə, Şuşada dalğalanacaqdır”.

Bu yazıda da Azərbaycan Ordusunda xidmət edən Yaşar Hüseynovun bayraq sevgisindən söhbət açmaq istərdim. Qəhrəmanım haqqında əvvəlcə onu deyim ki, o, 1981-ci ildə Ağdam rayonunun Abdal kəndində dünyaya göz açıb, həyatını orduya həsr edib. 2014-cü il Gülüstan əməliyyatı, 2016-cı il Aprel döyüşləri və Vətən müharibəsində igidliyi, qəhrəmanığı ilə seçilib.

İkinci Qarabağ müharibəsi zamanı Cəbrayıl uğrunda döyüşlərdə ağır yaralansa da, bir həftədən sonra Cənub istiqamətində savaş aparan yoldaşlarının yanına qayıdıb. Yaşarın Zəfər yürüşünün son dayanacağı isə Şuşa olub. Tale bu qala-şəhərdə onu illərlə ürəyində gəzdirdiyi, yuxusunu ərşə çəkdirdiyi arzusuna bu müqəddəs məkana bayraq sancmaq istəyinə, bəxtəvərliyinə qovuşdurub – düz 28 il yarımlıq uzun bir zaman məsafəsindən sonra sevinc və göz yaşları ilə bu ulu torpağın azadlığını təcəssüm etdirən, şəhid ruhlarının daşıyıcısı olan üçrəngli bayrağımızı şəhər icra hakimiyyətinin binasına sancıb.

Yaşar Hüseynov o anı belə xatırlayır: – Komandirimiz Gündüz müəllimlə hələ döyüşlər başlayan ilk günlərdə Şuşaya gedib çıxmağı, şəhərin ən hündür binalarının birinin üzərində birlikdə bayrağımızı sancmağı, sonra azan verməyi niyyət etmişdik. Allah arzumuzu gözümüzdə qoymadı. Komandanlığın rəhbərliyi ilə Şuşaya daxil olub şəhərdən düşməni təmizlədik və noyabrın 8-də burada icra hakimiyyətinin binasına qalxaraq qondarma “Dağlıq Qarabağ Respublikası”nın bayrağını yerə atıb, öz şanlı bayrağımızı ora sancdıq. İndi sözlə ifadə edə bilmədiyim bu hadisənin yaşandığı anlardakı kimi özümü heç vaxt belə xoşbəxt, bəxtəvər, qürurlu hiss etməmişdim. Dəlicəsinə ağlamaq, göz yaşı axıtmaq, sonra da dəhşətli bir haray çəkib sevincimi dünyaya, Şuşanın dağ-dərələrinə çatdırmaq istəyirdim…

…Dalğalanan o bayraq Qarabağ uğrunda Vətən müharibəsində qazanılan müqəddəs Qələbənin təsdiqi idi. Şuşa səmasında Pənahəli xan Cavanşirlərin ruhunun dincliyinin ifadəsi idi.

…Üçrəngli, Ay-ulduzlu o bayraq dalğalandıqca sanki Bayat, Şahbulaq, Əskəran, Şuşa qalalarının daş dünyasında çalınan cəngi sədalarını eşidirdim. O bayraq dalğalandıqca əsən küləyin “Qarabağ Azərbaycandır!” möhtəşəm çağırış-nidasını bütün planetə car çəkdiyinin şahidi olurdum. O bayraq dalğalandıqca Azərbaycanın son yüzillərinin ən böyük qələbəsinin – şərəfli tarixinin yazıldığını düşünürdüm. Buna görə ürəyimdə yeni tarix yazan, yeni reallıq yaradan, xalqımıza Zəfər Günü bəxş edən Ali Baş Komandan İlham Əliyevə sonsuz təşəkkür edirdim.

Nəhayət, o hündürlükdə əzəmətlə dalğalanan və şərəfli keçmişimizin, işıqlı sabahımızın daşıyıcısı olan, savaş meydanında şəhidimin and yerinə çevrilən o bayrağa baxdıqca bizim kimliyimiz, birliyimiz məni qürurlandırırdı. Üçrəngli bayrağımızla bundan sonra məsud yaşayacağımıza əminliyim möhkəmlənirdi.

Otuz illik həsrətdən sonra Şuşada Azərbaycan bayrağı dalğalanmağa başlayanda düşmən bir daha bu şəhərin, bu dağ-dərənin, bu suyun, bu havanın yiyəsinin gəldiyini anladı. Daha bu qədim, əzəli-əbədi yurd yerlərimizdə at oynada, kef məclisləri qura bilməyəcəyini dərk etməyə başladı.

***

Prezident İlham Əliyevin “Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularına “Vətən Müharibəsi Qəhrəmanı” adının verilməsi haqqında” 2020-ci il 9 dekabr tarixli sərəncamına əsasən xüsusi təyinatlıların baş giziri Yaşar Hüseynov “Vətən Müharibəsi Qəhrəmanı” adına layiq görülüb. O, həmçinin “Şuşanın azad olunmasına görə” medalı ilə təltif edilib.

Qeyd edək ki, Birinci Qarabağ müharibəsində Yaşar Hüseynovun üç qardaşı iştirak edib. Onlardan Füzuli Hüseynov 1994-cü il aprelin 16-da Ağdam rayonunun Yusifcanlı kəndində şəhid olub, Fərman və Sadiq isə müharibə veteranlarıdır.

**Vaqif BAYRAMOV,**
**“Xalq qəzeti”**